**DOI 10.5281/zenodo.10362585**

***Samaneh ARSALANİ***

# URMİYA SAZININ KONSTRUKTİV QURULUŞU VƏ KÖKLƏNMƏSİ HAQQINDA

**Xülasə:** *Məqalədə Urmiya sazı haqqında, onun konstruktiv quruluşu, növləri və köklənməsi haqqında geniş məlumat açıqlanmışdır. Alətin üç qrupa bölünən simlərinin müxtəlif səs yüksəkliyində köklənməsi və bu köklənmə sisteminin ayrı-ayrı aşıq havalarının adlarıyla tanınması mətnin mövzusunu daha maraqlı edir. Məqalədəki bütün faktlar sxem və cədvəllərlə göstərilərək öz təsdiqini tapır.*

*Məqalədə alətin qoluna bağlanan pərdələrin sayına əsasən Urmiya sazı ilə Azərbaycan sazının fərqli cəhətləri barədə də açıqlamalar şərh olunmuşdur.*

***Açar sözlər:*** *Urmiya sazı, aşıq ifaçılığı, sazın növləri, simləri, köklənməsi.*

**Название статьи: О конструктивном строении и настройки саза Урмии**

**Аннотация**: *В статье даются обширные сведения об Урмийском сазе, его структурном строении, видах и корнях. Настройка струн инструмента, разделенных на три группы разной высоты и значимость этой системы настройки определяется по названиям отдельных ашугских мелодий и делают исследование более интересной. Все факты в статье показаны с помощью схем и таблиц и находят свое научное подтверждение.*

*В статье показаны различия между Урмийским сазом и Азербайджанским сазом по количеству струн, прикрепленных к дужке инструмента.*

***Ключевые слова:*** *Урмия, саз, ашыг, разновидности саза, струны, строй.*

**The name of the article: About the constructive structure and tuning of Urmiya Saz**

**Annotation**: *In the article, extensive information about Urmiya saz, its structural structure, types, and tuning is disclosed. The tuning of the strings of the instrument, which are divided into three groups, at different pitches, and the recognition of this tuning system by the names of individual ashig songs make the subject of the text more intriguing. All the facts in the article are confirmed by being shown with diagrams and tables.*

*In the article, the differences between Urmia saz and Azerbaijan saz based on the number of stages attached to the instrument were explained.*

***Keywords:*** *Urmia saz, Ashiq performance, types of saz, strings, tuning.*

Orta əsrlərin ilkin çağlarından (XIII – XIV əsrlər) təşəkkül tapan aşıq sənəti qədim ozan sənətinin davamı və varisidir. Aşıq ozana məxsus qopuz çalmaq, söz qoşub avazla oxumaq, dastan yaratmaq, elin toy və bayram mərasimlərini şənləndirmək, oğuz igidlərinin hünərini vəsf etmək və s. keyfiyyətlərini mənimsəmiş, ozanın üçtelli, sadə görkəmli qopuzunu doqquz telli saza çevirmişdir.

Saz – xalqın mədəniyyətinin, şifahi və yazılı ədəbiyyatının ən qədim özəlliklərini özündə əks etdirən, qəlbləri oxşayan musiqisi ilə könüldən-könülə yol açan bir musiqi alətidir. Onun səslənməsində əsrlərin yaddaşı, xalqın döyüş ruhu, Vətən sevgisi, düşmən üzərinə yeriyərkən çalınan "cəngi"lərin sədası, Koroğlunun nərəsi öz təzahürünü tapır. Azərbaycanın tanınmış filoloqu Seyfəddin Altaylı "Ozan dünyası" jurnalı üçün Elşad Çobanoğlu ilə müsahibəsində demişdir ki; *"Saz sadəcə sıradan bir çalğı aləti deyil, onda Türkün ruhu yaşayır. "Atüstü", "Qaraçı", "Baş sarıtel", "Misri", "Cəngi" kimi havaların müəyyən çalarlarını dinlədikdə atın yerişinin ahəngi adamın gözləri önündə canlanır, sanki insan özünü at belində hiss edir".* [1; səh.67]

Bu günəcən aşıq sənətini araşdıran istər ədəbiyyatşünas, istərsə də musiqişünas alimlərimizin apardığı çoxsaylı tədqiqatlardan məlum olmuşdur ki, aşıq şeirinin hər bir növü saz aləti ilə əlaqəli, sazın pərdələrinə istinadən yaradılmış, təşəkkül tapmış və inkişaf etmişdir. Bu gün də bir çox şairlərimiz şeirlərini aşıq poeziyası üstündə yazırlar. Çünki sazın sehirli musiqisi ilə aşığın ifasında səslənən şeir dinləyicidə daha təsirli əhval-ruhiyyə yaradır.

"Urmiya aşıq məktəbi"ndə saz aləti digər musiqi alətlərindən fərqli olaraq qüdrətli və müqəddəs alət kimi böyük ehtirama malikdir. Onun konstruktiv quruluşu Azərbaycan sazının

quruluşu ilə eyni olsa da, bəzi fərqli cəhətlərə də malikdir. Əvvəlcə Urmiya sazı ilə tanış olaq (sxem 1).

**URMİYA SAZININ QURULUŞU**




***Sxem 1. Urmiya sazının konstruktiv quruluşu***

Sazlar ölçülərinə əsasən, eləcə də pərdələrinin və simlərinin sayına görə üç növə bölünür:

1. Cürə saz
2. Ana saz
3. Tavar saz (meydan sazı)

Sazın konstruktiv quruluşu üç hissədən ibarətdir:

1. Kəllə
2. Qol
3. Çanaq

Sazın "kəllə" hissəsində simlərin bağlanması və köklənməsi üçün 8-9 aşıq vardır. "Kəllə" ilə "qol"un arasında kiçik xərək (qol xərəyi), "çanaq" hissəsində, "sinə"nin aşağı tərəfində isə böyük xərək yerləşir. Xərəklərə oturan simlər çanağın aşağısındakı alt xərəyə (onu "daraq" da adlandırırlar) bərkidilir.

Sazın qoluna bir-birinə fərqli məsafədə yerləşən "pərdə"lər bağlanır. Onların sayı bu gün müxtəlif aşıq məktəblərində fərqli sayda; − 18-26 arası ola bilər. Sazın "qol" hissəsi çanağa "beçə" (aşıqlar ona "boğaz" da deyirlər) adlanan hissə vasitəsilə birləşir (sxem 2).



*Sxem 2. Sazın konstruktiv quruluş hissələri*

Sazın "çanaq" hissəsi əvvəllər tut ağacının oduncağının ovulması ilə bütöv şəkildə düzəldilirdi. Hazırda çanağın yan və arxa hissəsi doqquz nazik taxta parçasının bir-birinə möhkəm bənd edilməsi ilə hazırlanır. Bunlar aşıqlar arasında "qabırğa" kimi də adlandırılır. Çanağın üzv hissəsinə isə − "sinə" deyilir. Sinə üzərində üç dəlik açılır ki, bu dəliklər səsləri gücləndirmək məqsədi daşıyır və rezonator rolunu oynayır.

Sazın alt xərəyinə (daraq) bərkidilən simlər (tel) çanağın "sinə"si və "qol"u üzərində yerləşdirilərək, yuxarıda kiçik xərəyə otuzdurulub "kəllə"dəki aşıqlara sarılmaqla köklənir.

Simlərin sazda düzülüşü üç qrupa bölünür (sxem 3):

1. Alt simlər
2. Orta simlər
3. Üst simlər

1. Saz havalarının melodiyası hər zaman alt simlərdə çalındığı üçün onlara "barmaq simlər", bəzən də "zil simlər" deyirlər. Bu simlərin kökü dəyişməzdir.

2. Müvafiq aşıq havalarına uyğun olaraq orta simlərdə "kök" (yəni səsin yüksəkliyi) dəyişdiyi üçün bu simləri "köklənən simlər" və yaxud "bəm simlər" də adlandırırlar.

3. Üst simlərin də "kök"ü hər zaman eyni yüksəklikdə, dəyişməz qalır. Səslənmə funksiyasına görə bu simlərə "dəm simlər" deyilir.




***Sxem 3. Çanaq üzərində simlərin düzülüşü***

Sazın simləri haqqında danışarkən əldə etdiyimiz çox maraqlı bir faktı da qeyd etmək istərdik. Belə ki, Azərbaycanın ustad sənətkarları Borçalı mühitində sazın beş növünün olduğunu da söyləyirlər. Bu haqda gürcüstanlı ədəbiyyatşünas-alim, Valeh Hacılar (1951-2010) özünün "Ozan-aşıq mədəniyyəti" adlı məqaləsində yazır ki; *"Borçalıda sənətkarlar sazın beş növü haqqında məlumat verir: 1. Cürə saz (bu saza şəyird sazı da deyirlər) – 3-5, bəzən 7 telli olur; 2. Xatabənd saz (orta saz da deyirlər, qolu boş saz da, yəni qolunun içi boş) – 9 tellidir; 3. Meydan sazı (bu saza "tavar" və ya "baş saz" da deyirlər) – 9 tellidir; 4. Ana saz (bu saza "usta sazı" da deyirlər) – 9 tellidir; 5. Dədə saz ("ata saz" da deyirlər) – 11 tellidir. Əslində dədə saz 12 telli olmalıdır, çünki tellər üç-üç artır. Sazın qoluna 12-ci tel yerləşmədiyi üçün bir tel az bağlanır. Bu cür sazı ilk dəfə təkmilləşdirən mərhum ustad Aşıq Əmrah olmuşdur"*. [2; səh.63]

Aşıq ifaçılığında sazın köklənməsi ən vacib amillərdən sayılır. Bu gün bizə məlum olan, təkcə Urmiya aşıq məktəbində deyil, Azərbaycanın bütün aşıq mühitlərində tanınan saz

havaları (81 hava) ümumən altı "kök"də ifa olunur. Yəni bu havalar yarandığı və istinad etdiyi pərdəyə əsasən altı qrupa bölünür. Deməli, aşıq melodik intonasiyası oxşar olan, eləcə də eyni lad-məqam xüsusiyyətli bir çox havaları eyni kökdə ifa edə bilər. Belə havalarla tanış olmamışdan öncə sazın "kök"lərini təqdim edirik:

1. Baş kök
2. Orta kök
3. Şah kök
4. Divani kök
5. Açıq kök
6. Çoban bayatı kökü

Qeyd etdiyimiz bu saz "kök"lərini bir çox aşıqlar melodiyanın istinad pərdəsinə görə həmin havanın adı ilə təqdim edirlər. Məsələn, "Misri kökü", "Ürfanı kökü", "Bayramı kökü", "Dilqəmi kökü" və s. Bu məqsədlə sazın "kök"lərinin hansı pərdələrə istinad etdiyini və hansı səs yüksəkliyinə kökləndiyini aşağıdakı cədvəllərdən izləyək:

***Cədvəl 1.***

| **Sıra №** | **Sazın kökləri** | **Alt simlər** | **Orta simlər Köklənən simlər** | **Üst simlər** |
|---|---|---|---|---|
| | Baş kök | Do | Re | Si b |
| | Orta kök | Do | Mi b | Si b |
| | Şah kök | Do | Fa | Si b |
| | Divani kök | Do | Do – Sol | Si b |
| | Açıq kök | Do | Do | Si b |
| | #Çoban bayatı kökü | Do | Lya b | Si b |

***Cədvəl 2.***

| **SAZIN PƏRDƏLƏRİ VƏ ONLARIN ƏNƏNƏVİ ADLARI** | **TONALLIQLAR, SƏS YÜKSƏKLİYİ** |
| --- | --- |
| **Açıq sim** – boş və ya “açıq sim” (alt sim) |  |
| **I pərdə** – yarım pərdə (xaric pərdə) |  |
| **II pərdə** – baş pərdə (“Baş divani”, “Baş müxəmməs” pərdəsi) |  |
| **III pərdə** – gül pərdə (“re #”-dən zil, “mi b”-dan bəm səslənir) |  |
| **IV pərdə** – orta pərdə (“Təcnis”, “Ürfanı” pərdəsi) |  |
| **V pərdə** – “Misri” pərdəsi (yarım pərdə) |  |
| **VI pərdə** – şah pərdə |  |
| **VII pərdə** – yarım pərdə |  |
| **VIII pərdə** – “Divani” pərdəsi (çuxuru pərdə) |  |
| **IX pərdə** – “Çoban bayatı” pərdəsi |  |
| **X pərdə** – “Bəhməni” pərdəsi (yarım pərdə) |  |
| **XI pərdə** – “Koroğlu” pərdəsi |  |
| **XII pərdə** – yarım pərdə |  |

| | |
|---|---|
| **XIII pərdə** – beçə pərdə |  |
| **XIV pərdə** – yarım pərdə |  |
| **XV pərdə** – baş pərdənin zili |  |
| **XVI pərdə** – orta pərdənin zili |  |
| **XVII pərdə** – sinənin yarım pərdəsi |  |
| **XVIII pərdə** – sinənin şah pərdəsi |  |
| **XIX pərdə** – sinənin yarım pərdəsi |  |
| **XX pərdə** – axırıncı pərdə (son pərdə) |  |

Təqdim etdiyimiz 2-ci cədvəldə 20 pərdəli sazın tonallıq və səs yüksəkliyi, eləcə də bəzi pərdələrin aşıqlar arsında tanınan adları qeyd edilmişdir. Lakin yuxarıda saz alətindən bəhs edərkən, müxtəlif aşıq mühitlərinin ifaçılıq ənənələrinə əsasən 18-26 pərdəli sazların mövcudluğu haqqında məlumat vermişdik. Bu əsnada qeyd etməliyik ki, "Urmiya aşıq məktəbi"nin ifaçılığında 14-16 pərdəli sazdan istifadə edilir. Eyni quruluşa malik olsa da, Azərbaycan sazı ilə Urmiya sazını fərqləndirən cəhət ilk növbədə onların pərdələrinin say müxtəlifliyindədir.

İkinci fərqli cəhət isə aşıq havalarının sayındadır. Ümumiyyətlə, halhazırda 81 aşıq havasının mövcud olduğu məlumdur. Azərbaycanda tanınmış şair-filoloq, tədqiqatçı-alim Sədnik Paşa Pirsultanlı (1929-2013) özünün "Ozan-aşıq sənətinin nəzəri məsələləri" adlı kitabında 80 adda aşıq havasının siyahısını açıqlamış, onların geniş təsnifatını vermişdir. [3; səh.7-14]

Lakin istər Azərbaycanın, istərsə də İranın aşıq mühitlərində bu havaların hamısı oxunmur. Hər məktəbin çox istifadə edilən, məşhur havalardan ibarət repertuarı vardır. Urmiya aşıq mühitində 45 hava ifa olunur;

1. Ağaxani 24. Müsəlman Keşişoğlusu
2. Arazbasdı 25. Nəsrillahı

| | |
|---|---|
| 3. Bəhməni | 26. Osmanlı Şərilisi |
| 4. Bəhri divani | 27. Ovçu gəraylısı |
| 5. Bəndayı Hicranı | 28. Paşa köçdü |
| 6. Cəmşidi | 29. Qars havası |
| 7. Cığalı təcnis | 30. Qərini |
| 8. Dikdabanı | 31. Qoca Əkbəri |
| 9. Dol Hicranı | 32. Qürbəti |
| 10. Dübeyt | 33. Ruhani |
| 11. Duraxanı | 34. Şah Xətai divani |
| 12. Əmrahı | 35. Şaqi |
| 13. Erməni Keşişoğlusu | 36. Şəkəryazı |
| 14. Gülşanı | 37. Səmahi |
| 15. Haçaxaldarı | 38. Siyastabul |
| 16. Hələbi | 39. Taciri |
| 17. Həmədan gəraylısı | 40. Təcnis |
| 18. Hərbi | 41. Tərəkəmə gözəlləməsi |
| 19. Kəsmə divani | 42. Urmiya Qarabağısı |
| 20. Kəsmə Hicranı | 43. Urmiya Şərilisi |
| 21. Kəsmə Kərəmi | 44. Xoy Əmrahısı |
| 22. Misri | 45. Zarıncı |
| 23. Möhtərəmi | |

Urmiya aşıq havalarından bəziləri Azərbaycanda çalınan havalarla oxşar, bəziləri isə fərqli məqam xüsusiyyətlərinə, ritmik məziyyətlərə malik olsalar da, yuxarıda adıçəkilən saz köklərində ifa edilir. Bu xüsusiyyətlər Azərbaycan və Urmiya aşıq sənətinin eyni kökə bağlılığını təsdiqləyir.

## ƏDƏBİYYAT SİYAHISI

**1**. Altaylı S.Ə. Saz Türkün ruhudur. “Ozan dünyası” jurnalı, №2. Bakı, “Nurlan”, 2010, səh.65-68

**2**. Hacılar V. Ozan-aşıq mədəniyyəti. “Ozan dünyası” jurnalı, №3. Bakı, “Nurlan”, 2011, səh.56-65

**3**. Paşayev S.X. Ozan-aşıq sənətinin nəzəri məsələləri. Bakı, “Ozan” nəşriyyatı, 2002, 208 s.